**Beşdən çox uşağı olan qadınlara *sosial müavinətin* məbləğinin müəyyən edilməsi haqqında**[1]

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Sosial müavinətlər haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2013-cü il 29 oktyabr tarixli 791-IVQD nömrəli Qanununun icrasını təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Beşdən çox uşağı olan qadınlara *sosial müavinətin* məbləği hər uşaq üçün *55 (əlli beş)* manat müəyyən edilsin.[2]
2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.
3. Bu Fərman 2014-cü il yanvarın 1-dən qüvvəyə minir.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 27 dekabr 2013-cü il
72

**İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI**

1. 16 aprel 2018-ci il tarixli **1917** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 4, maddə 668**)
2. 15 aprel 2019-cu il tarixli **638** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 16 aprel 2019-cu il, 81, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 4, maddə 638**)

**FƏRMANA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI**

---

[1] 15 aprel 2019-cu il tarixli **638** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 16 aprel 2019-cu il, 81, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 4, maddə 638**) ilə adında "**müavinətin**" sözü **"sosial müavinətin**" sözləri ilə əvəz edilmişdir.

[2] 16 aprel 2018-ci il tarixli **1917** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 4, maddə 668**) ilə 1-ci hissəsində "**30 (otuz)**" sözləri "**33 (otuz üç)**" sözləri ilə əvəz edilmişdir.

15 aprel 2019-cu il tarixli **638** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 16 aprel 2019-cu il, 81, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 4, maddə 638**) ilə 1-ci hissədə "**müavinətin**" sözü "**sosial müavinətin"** sözləri ilə, "**33 (otuz üç)"** sözləri **"55 (əlli beş)**" sözləri ilə əvəz edilmişdir.